Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# İmanlı Cəmiyyəti Çətinliklərlə Üzləşir

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest

Uyğunlaşdıran: Ruth Klassen
Alastair Paterson
Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

Allahın Oğlu İsanın ölülər arasından dirilməsindən əlli gün sonra Onun ardıcıllarının daxilində yaşamaq üçün Müqəddəs Ruh gəldi. Şagirdlər Allah Ata, Allah Oğul (İsa) və Allah Müqəddəs Ruhun üçünün birlikdə tək Allah olduğunu başa düşə bilməsələr də, Allahın onlarla olmasına şad idilər. Allah həvarilərin başqalarına İsa haqqında danışmalarına kömək etmək üçün gözəl şeylər etdi.



İsaya iman edən adamlar kasıbların qayğısına qalmaq üçün malik olduqları hər şeyi bölüşürdülər. Amma Xananya və Sapfira adlı bir cütlük səmimi deyildilər.  Onlar mülklərini satdılar və özlərini pulun hamısını həvarilərə gətirirmiş kimi göstərdilər, amma pulun bir hissəsini gizlicə özlərinə saxladılar.



Peter Xananyaya dedi: “Nə üçün ürəyinə Şeytanı buraxıb Müqəddəs Ruha yalan söylədin…? Sən insanlara deyil, Allaha yalan satdın”. Xananya yerə yıxıldı və canı çıxdı. Gənclər gəlib Xananyanın meyitini kəfənə bükdülər və aparıb dəfn etdilər.



Bundan qısa müddət sonra ərinin öldüyündən xəbəri olmayan Sapfira gəldi. O da pul barəsində yalan danışdı və eyni şey onunla da baş verdi. Bu hadisəni eşidənlərin hamısını böyük vahimə bürüdü.



Allah Müqəddəs Ruh həvarilər vasitəsilə çoxlu xariqələr və möcüzələr etdi. Misal üçün, Peterin kölgəsi xəstə adamların üzərinə düşəndə onlar şəfa aldılar.



Bu, Allahın hüzurunu göstərən böyük möcüzələr vaxtı idi. Daha çox insan İsaya iman etdi. Bu, baş kahini çox qəzəbləndirdi. O, həvariləri zindana atdı!





Amma Rəbbin
mələyi gecənin
bir vaxtında gəlib
zindanın qapısını
açdı, onları bayıra
çıxarıb dedi:
“Gedin, məbəddə
durun və camaata yeni həyatla bağlı sözlərin hamısını
deyin”. Həvarilər bunu eşidəndə səhər tezdən məbədə daxil
olub İsa haqqında təlimlərini öyrətməyə başladılar. Səhər
baş kahinin adamları zindanı boş gördülər.

Nəhayət, onları tapanda baş kahin həvariləri danladı: “Sizə bu İsimlə təlim öyrətməyi qadağan etmədikmi?” “Biz insana yox, Allaha itaət etməliyik”, deyə Peter və digər həvarilər dedilər. Baş kahin o qədər qəzəblənmişdi ki, o, həvariləri öldürmək istəyirdi. Amma o, onları döyməyi və azad etməyi əmr etdi. Ağrılarına baxmayaraq, həvarilər Allaha itaət etdilər və İsa haqqında təlim verməyə davam etdilər.



Bir gün Stefan adlı bir adamı həbs etdilər.  Stefan Rəbb İsanı sevirdi.  Müqəddəs Ruh digərlərinə İsa haqqında təlim vermək üçün ondan istifadə edirdi.  Bəzi adamlar yalandan Stefanın Allaha qarşı danışdığını dedilər. İşgəncə verəndən sonra Stefanı İsaya olan imanına görə daşqalaq edərək öldürdülər.



Ölməzdən əvvəl Müqəddəs Ruhla dolmuş Stefan göylərə baxdı, Allahın izzətini və Allahın sağında dayanan İsanı gördü.
Stefan Allahı çağırarkən və “Rəbb İsa, ruhumu qəbul et” deyərkən camaat onu daşqalaq edi.
Sonra çarmıxdakı İsa kimi, bu cəsur adam öz son nəfəsində bu qatilləri bağışlaması üçün Allaha dua etdi.



Stefanın ölümü ilə yeni təqib dalğası başlandı. Stefanın qatillərinə kömək edən Şaul adlı gənc bir adam tapdığı hər bir məsihçini zindana atırdı. Məsihçilərin çoxu evlərindən qaçdılar, Yəhudeyaya və Samariyaya səpələndilər. Yerusəlimdə yalnız həvarilər qalmışdılar.



Düşmənlərinin onları öldürməyə cəhd etməsinə baxmayaraq, səpələnən məsihçilər İsa haqqında xoş xəbəri yayaraq, hər yerə getdilər.  İsanın ardıcıllarını heç bir şey dayandıra bilməzdi, çünki Allahın Müqəddəs Ruhu onlarda yaşayırdı və onlar vasitəsilə işləyirdi.



# İmanlı Cəmiyyəti Çətinliklərlə Üzləşir

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Həvarilərin İşləri 5-7

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**